# Mıxlıqovaq kəndində vətəndaşlarla səyyar görüş-qəbul keçirilib

***Qəbələ Rayon İcra Hakimiyyəti başçısının vətəndaşlarla növbəti səyyar görüş-qəbulu Mıxlıqovaq kəndində keçirilib. Tədbirdə rayonun hüquq mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri və ağsaqqallar iştirak edib.***





Səbuhi Abdullayev səmimi görüş üçün kənd sakinlərinə minnətdarlığını ifadə edib, bu gün respublikamızda və rayonumuzda həyata keçirilən layihələrdən, sosial-iqtisadi inkişafdan danışıb. O, Prezident cənab İlham Əliyevin sərəncamları ilə kəndin mərkəzi yolunun asfaltlaşdırıldığını, əraziyə təbii qaz xəttinin çəkildiyini, yaşayış məntəqəsində EATS quraşdığıldığını, yeni artezian quyularının qazıldığını və əhalinin içməli su probleminin həll edildiyini, həmçinin kənd sakinlərinin fasiləsiz olaraq elektrik enerjisi ilə təchiz olunduğunu diqqətə çatdırıb.

RİH başçısı qeyd edib ki, respublikada həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, bu gün hər bir bölgəmizdə, o cümlədən rayonumuzda tikinti-abadlıq işləri durmadan genişlənir, yeni yollar çəkilir, təhsil, səhiyyə müəssisələri inşa edilir, uşaq bağçaları tikilir, digər sosial layihələr icra olunur. Səbuhi Abdullayev çıxışında özəl sahəyə də xüsusi diqqət yetirildiyini, yeni-yeni istehsal və emal müəssisələrinin yaradıldığını vurğulayıb. Natiq rayonda kənd təsərrüfatının, xüsusilə heyvandarlığın, taxılçılığın, bağçılığın, tütünçülüyün, baramaçılığın və digər sahələrin sürətlə inkişaf etdiyini diqqətə catdırıb. O, görülən işlərin, həyata keçirilən bütün tədbirlərin sonda yalnız bir amala - əhalimizin yaxşı yaşamasına, insanlarımızın fəaliyyəti üçün iş yerlərinin yaradılmasına və onların sosial rifahının, həyat səviyyəsinin daha da yaxşılaşmasına xidmət etdiyini deyib.

Sonra kənd sakinlərinin müraciətləri dinlənilib.

Görüş-qəbulda qaldırılan məsələlərin bir qismi yerində həll edilib. Həyata keçirilməsi vaxt tələb edən digər təkliflərin icrası üçün isə Səbuhi Abdullayev tərəfindən əlaqədar təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verilib.

Tədbirdə kənd sakinləri onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto).**
**"Qəbələ"**

# RİH-də seminar-müşavirə

Sentyabrın 21-də Qəbələ Rayon İcra Hakimiyyətində seminar müşavirə keçirilmişdir.

Müşavirədə rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov, müavini Arif Allahverdiyev, RİH aparatının işçiləri, 6 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin rəisi Ədalət Əsgərov, Şəki Regional Miqrasiya İdarəsi sərhəd buraxılış məntəqəsində miqrasiya bölməsinin rəisi Faiq Məmmədov, Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Rahib Əhmədov, Qəbələ Dövlət Sığorta Müffətişliyinin rəisi Allahverdi Əfəndiyev, İnzibati ərazi nümayəndələri və bələdiyyə sədrləri iştirak etmişlər. Seminar müşavirədə cari məsələlər müzakirə olunmuşdur.

Müşavirəni RİH başçısının birinci müavini Abil Ağasəfov açmışdır.





Ədalət Əsgərov seminarda ətraf mühitin mühafizəsi və ekoloji qanunvericiliklə bağlı çıxış edərək təbii sərvətlərin davamlı və qanunsuz istifadə olunmasının ərtaf mühitin zərərli təsirlərdən qorunması işlərinin effektinə mənfi təsir göstərdiyini, eləcə də bunula bağlı ətraf mühitin zərərli və bioloji təsirlərə məruz qaldığını diqqətə çatdırmışdır.

Faiq Məmmədov ölkə üzrə qanunsuz miqrasiyaya qarşı mübarizə işlərini gücləndirmək və onun qarşısının alınması məqsədilə Qəbələ rayon ərazisində qeydiyyatsız yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müəyyən edilməsi ilə bağlı inzibati ərazi nümayəndəlikləri və bələdiyyələr tərəfindən yaşayış məntəqələrində qanuni və qanunsuz əsaslarla yaşayan və vətəndaşlığı olmayan şəxslərlə bağlı məlumatların hazırlanması və regional miqrasiya idarəsinə təqdim olunması məsələlərini təhlil edərək aydınlıq gətirmişdir.

Payızlıq və yazlıq əkinlərə hazırlıq işləri barədə Rahib Əhmədov məlumat verərək rayonda ixrac əhəmiyyətli kənd təsərrüfatı məhsullarının əkininin genişləndirilməsi, o cümlədən tütünçülüyün, baramaçılığın inkişaf etdirilməsi məsələlərinin vacibliyini diqqətə çatdırmışdır.

Allahverdi Əfəndiyev vətəndaşların mülkiyyətində olan tikintilərin sığorta edilməsinin zərurətindən danışaraq, son dövrdə yanğından və digər səbəblərdən əmlakın sığorta edilməməsi ilə əlaqədar vətəndaşlara dəyən ziyanlar barədə statistik rəqəmləri səsləndirmiş, əhali arasında sığorta maarifinin genişləndirilməsinin zəruriliyini diqqətə çatdırmışdır.

Seminar-müşavirəni Abil Ağasəfov yekunlaşdırmışdır.

**“Qəbələ”**
**İlkin Vəlizadə (foto).**

# Sınaq siyahıyaalınmaya hazırlıq başa çatdırılıb

“2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev 2016-cı il 7 sentyabr tarixli 1040 nömrəli Fərman imzalamışdır. Bu fərmanla əlaqədar olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin “2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı haqqında” 16 dekabr 2016-cı il tarixli, 517 nömrəli qərarı olmuşdur. Qərarda əhalinin siyahıyaalınmasına hazırlıq vəziyyətinin qiymətləndirilməsi məqsədi ilə 2018-ci il 1-10 oktyabr tarixində Qəbələ rayonunda əhalinin sınaq siyahıyaalınması keçirilməsi təsdiqini tapmışdır.





Nazirlər Kabinetinin müvafiq qərarına əsasən Qəbələ Rayon Statistika İdarəsində siyahıyaalma məntəqələrinin yerləşdiyi yerli icra nümayəndələrinin və siyahıyaalma məntəqələri müdirlərin iştirakı ilə seminar-müşavirələr keçirilmişdir. Seminar-müşavirələrdə Qəbələ RİH-nin başçısının müavini Arif Allahverdiyev iştirak etmişdir.

Arif Allahverdiyev seminarlarda siyahıyaalmanın cəmiyyətin həyatındakı əhəmiyyətindən danışmış, bu mürəkkəb və iri həcmli işin uğurla həyata keçirilməsi üçün hökümətin həyata keçirdiyi tədbirlər barədə məlumat vermiş, siyahıyaalma ilə məşğul olacaq məsul şəxslərin üzərinə düşən vəzifələri izah etmişdir.

Seminarlarda iştirakçılarının siyahıyaalma ilə əlaqədar bütün sualları cavablandırılmışdır.

**“Qəbələ”**
**İlkin Vəlizadə (foto).**